*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 273-277*

https://doi.org/10.62837/2026.1.273

**B.m CƏFƏROVA NAİLƏ ƏLIXAN QIZI**
**Bakı Slavyan Universiteti(BSU)**
**Kazimova.naile@mail.ru**

# OYUNLARIN İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ƏHƏMİYYƏTİ

**XÜLASƏ**

Müasir dövrdə ingilis dilinin tədrisində oyunlar vacib və effektiv vasitədir. Şağirdlərin motivasiyasını artırmaq üçün oyunlardan tədris prosesində geniş şəkildə istifadə olunur. Ənənəvi tədris metodlarının yerinə daha interaktiv və motivə edici oyunlardan istifadə etmək tədris prosesini canlı və effektiv edir. Oyunlardan dilin mənimsənilməsində istifadə edilməsi şağirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirir, onların şəxsiyyətinin inkişafına, özünə inam hissinin formalaşmasına,dil bacarıqlarının inkişafına yardım edir. Oyunlardan düzgün şəkildə istifadə edilməsi kommunikativ yönümlü tədris prosesini daha effektiv və məhsuldar edir.

**Açar sözlər: metod, oyun, tədris, texnologiya, şagird, effektiv, aktiv, maraq, keyfiyyət, ingilis dili, kommunikativ bacarıqlar, tədris prosesi**

Tədris prosesində oyun metodundan istifadənin səmərəli nəticələri uzun illərdi müşahidə edilməkdədir. Bu metod təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərin dərs prosesinə marağını artırmaq, dərsdə onların aktivliyini təmin etmək, tədris olunan materialın mənimsənilməsini effektiv və yadda qalan etmək məqsədilə tədbiq edilir. Bu metodlardan yalnız ibtidai siniflərdə deyil, tədrisin bütün pillələrində, yəni orta və ali təhsil pillələrində də effektiv şəkildə istifadə olunur. Əsas məqsəd oyunların düzgün şəkildə seçilməsi və tədris prosesinə uyğun şəkildə təşkil olunmasıdır.

Uşaqlar üçün oyun həyatın bir hissəsidir, burada onlar öz təxəyyüllərini, ixtiraçılıq qabiliyyətini inkişaf etdirirlər. Məşhur pedaqoq A.S. Makarenko qeyd edirdi ki, oyunda uşaq uşaq olaraq qalmır. Bunu nəzərə alaraq, gənc şagirdin gələcək fiqur kimi tərbiyəsi, ilk növbədə, oyunda həyata keçirilməlidir.

Oyunların seçilmə prosesində şağirdlərin yaş səviyyəsi, onların ən əsası dil bilikləri ən vacib faktorlardır . İbtidai siniflərdə kiçik yaşlı uşaqlar üçün istifadə etdiyimiz vizual oyun növlərini yeniyetmələr üçün istifadə olunması effektiv deyildir. Yuxarı sınıf şağirdlərinin oyunlarda fəallığını təmin etmək üçün daha çox strategiyaya əsaslanan məntiqi dil oyunlarından istifadə olunması daha uyğundur. Bir çox görkəmli pedeqoqlar haqlı olaraq təlim prosesində oyunun istifadəsinin effektivliyinə diqqət yönətmişdilər. Oyunlar şağirdlərdə dərsə maraq oyatmaqla yanaşı, onlarda öyrənməyə qarşı pozitiv münasibət formalaşdırır. Oyunlardan tədris prosesində istifadə olunması şağirdlərin fikirlərini sərbəst şəkildə ifadə etmələrinə, eyni zamanda aktiv bir dinləyici kimi yetişmələrinə, sinif yoldaşları ilə qarşılıqlı hörmətə əsaslanan dialoqlar qurmalarına, başqalarının fikrinə tənqidi yanaşmaq,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2026
Səh. 273-277

objektiv olmaq kimi keyfiyyətlərinin formalaşmasına yardım edir. Oyunlarda şağirdlərin qazandıqları uğurlar onların öz güvən hissini artırır və yalnız təhsildə deyil, həyatda da uğur qazanmaları üçün zəmin yaradır. Bu, oyunda hər hansı bir uşağın qabiliyyətlərinin xüsusilə tam və bəzən gözlənilmədən təzahür etməsi ilə izah olunur. Bununla belə, məktəbdə xarici dillərin tədrisi baxımından oyundan dərs zamanı istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, oyun idrak marağının stimullaşdırılmasında, mürəkkəb təlim prosesinin asanlaşdırılmasında, şagirdlərin yaradıcı şəxsiyyətinin formalaşmasına şərait yaradılmasında müstəsna rol oynayır.

Tədris prosesində oyun texnologiyalarından istifadə olunması yalnız şagirdlərin yaradıcılıq və axtarış səviyyəsinin inkişaf etdirmir, bu metodlardan istifadə olunması şağirdləri motivə edir və əməkdaşlıq ruhunu gücləndirir, fikir mübadiləsi bacarığını formalaşdırır. Oyunlar eyni zamanda ingilis dilinin tədrisində gündəlik addımları maraqlı və həyəcanlı etməyə imkan verən unikal təhsil formalarından biridir. Oyunun digər müsbət tərəfi ondan ibarətdir ki, o, biliklərin yeni şəraitdə istifadəsinə şərait yaradır, ona görə də şagirdlərin öyrəndikləri material bir növ təcrübədən keçir, təlim prosesinə rəngarənglik və maraq gətirir.

Oyun texnologiyasından tədris prosesində istifadə olunması təhsil prosesinin müəyyən hissəsini əhatə edir. Xüsusən də oyunlarlardan şağirdlərin kommunikativ bacarıqlarının formalaşdırılması prosesində istifadə olunması müasir pedaqoji yanaşmalarda böyük əhəmiyyət kəsb edir. Şağirdlər müxtəlif sosial situasiyaları canlandıraraq, dinləmə və cavab vermə bacarıqlarını inkişaf etdirir, qeyri-rəsmi və rəsmi üsniyyət arasında olan fərqi öyrənir, bu onlarda özlərinə inam hissini artırır.

Şağirdlər müxtəlif mövzu ətrafında qruplara bölünərək öz fikirlərini bildirir, bu onlarda əsaslandırılmış fikir bildirmək, qarşı tərəfin fikrində hörmətlə yanaşmaq, dəlil və arqument gətirmək bacarıqlarını inkişaf etdirir. Komanda daxilində şağirdlər öz sinif yoldaşları ilə daima insiyyət qurmağa çalışır, bu şağirdlərin əməkdaşlıq və fikir mübadiləsi etmək bacarığını formalaşdırır, onlarda liderlik və paylaşmaq kimi keyfiyyətlər formalaşdırır. Öyrənmə prosesini daha canlı, effektiv və yadda qalan etmək üçün istifadə olunan oyunlar dərsə dinamizm gətirir, şağirdləri motivə edir, dərsə marağını artırır. Şağirdlər oyunların köməyi ilə oyunlarda fəal şəkildə iştirak etməklə adətən öyrənməkdə çətinliklərlə üzləşdikləri dərs materiallarını çox rahat bir şəkildə mənimsəyirlər. Onlar leksik və qrammatik qaydaları oyunlarda iştirak edərək, aktiv şəkildə mənimsəyirlər. Oyunların bu məqamda məqsədəyönlü şəkildə istifadə olunmasının vacibliyini vurgulayan Harmer oyunların əyləncə vasitəsi olmaqla yanaşı, dilin funksional və praktik istifadəsi üçün vacib vasitə olduğunu xüsusilə vurğulamışdır.[3. s 60 ]

Oyunun süjet xəttinin təhsilin əsas məzmunu ilə paralel şəkildə inkişafı təlim prosesinin aktivləşməsinə kömək edir. Psixoloq və metodistlərin fikrincə, kiçik yaşlı

şagirdlərə ingilis dilini öyrətmək üçün oyunlardan istifadə edilməsi optimal və əlverişli mühit yaradır.

Orta məktəbdə təhsilin ilkin mərhələsində şagirdlərin ingilis dili bilik, bacarıq və vərdişlərinin əsasları qoyulur, bu da ingilis dilin tədrisinin orta və yuxarı pillələrində onların sonrakı inkişafı və təkmilləşdirilməsi üçün zəruri və

kifayətdir. İngilis dili dərslərində yeni məlumatların gənc şagirdlər tərəfindən mənimsənilməsi prosesi ən yaxşı oyunda həyata keçirilir. Kiçik yaşlı şagirdlərə ingilis dilini öyrətməyin formalarından biri də maarifləndirici oyunlardır. Maarifləndirici oyunlar şagirdlərin yeni sözləri və qrammatik materialı əyləncəli şəraitdə öyrənmələrinə kömək edir.

Dərsdə düzgün təşkil olunmuş oyun fəaliyyəti şagirdlərin nitq fəaliyyətinin bütün növlərində bilik və bacarıqlarını inkişaf etdirməyə imkan verir. Uşaqlar hər hansı bir fəaliyyətə, xüsusən də oyunlara asanlıqla cəlb olunurlar: onlar müstəqil olaraq qrup oyununda özlərini təşkil edir, əşyalarla, oyuncaqlarla oynamağa davam edir, təqlid olunmayan oyunlarda özlərini göstərirlər. Oyun ingilis dilinin öyrənilməsinə davamlı maraq, eləcə də onun uğurla mənimsənilməsinə inam formalaşdırır.

Tədris prosesinin oyun modelində problem situasiyasının yaradılması oyun

situasiyasının tətbiqi ilə baş verir: problemli situasiya iştirakçılar tərəfindən onun oyun təcəssümündə yaşanılır. Uşaqlar oyun qaydalarına uyğun hərəkət edirlər. Oyun mühiti həm də ümumi fəaliyyətdə təşkilatçı, köməkçi rolu arasında tarazlıq yaradan müəllimin mövqeyini dəyişir" [6, s. 159]. Oyunun didaktik funksiyası oyun hərəkətinin müzakirəsi, onun reallıqla əlaqəsi vasitəsilə həyata keçirilir. Oyunlar sosial xarakter daşıyır, zəngindir və böyüklərin dünyasını əks etdirmək üçün proqnozlaşdırılır. Oyun fəaliyyətinin psixoloji mexanizmləri fərdin özünü ifadə etmək, özünü təsdiq etmək, öz müqəddəratını təyin etmək, özünü tənzimləmək və özünü həyata keçirmək kimi fundamental ehtiyaclarına əsaslanır. Müasir dövrdə, texnologiyanın inkişafı oyunlardan, xüsusən də online oyunlardan dilin tədrisində istifadə olunması pedaqoji yanaşmanın əsas elementlərindən birinə çevrilmişdi. Oyunları tədris prosesində effektiv şəkildə istifadə edən müəllimlər tədris prosesində daha məhsuldar olur və uğurlu nəticələr əldə edirlər.

Tədris prosesində şagirdlər ilkin mərhələdə ana dilinin dil kodundan ingilis dilinə keçməli olurlar ki, bu da çətinliklər yaradır. Bu son dərəcə mürəkkəb metodoloji vəziyyət bir sıra nəzəri və praktiki problemlərin yaranmasına səbəb olur. Pedaqoqların təcrübəsi göstərir ki, ibtidai siniflərdə tədris oyunları prosesində xarici dilə yiyələnmək motivasiyanı artırır və yeni dilin öyrənilməsinə stimul əlavə edir, şagirdlərin məntiqi və təxəyyülü təfəkkürünün inkişafına töhfə verir və s. Bu baxımdan, kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətlərini nəzərə alaraq tədris materialının seçilməsi və sistemləşdirilməsi çox vacibdir.

İngilis dili dərslərində maarifləndirici oyunlardan istifadənin xüsusiyyətlərinə nəzər yetirək. Oyun çox vaxt inkişaf edən sosial fəaliyyət növü,

sosial təcrübənin mənimsənilməsi forması kimi müəyyən edilir [4, s 36].

İngilis dilində dərs prosesini təşkil edərkən şagirdlərin şəxsi və yaş xüsusiyyətlərini nəzərə almaq mühüm rol oynayır. Xüsusi ilə btidai məktəb yaşı

ingilis dili dərslərində ünsiyyət bacarıqlarına yiyələnmək üçün son dərəcə əlverişlidir. Bu yaşda fənnə məhəbbət müəllimin sinifdə yaratdığı psixoloji rahatlıq, sevinc, ehtiyac və ünsiyyətə hazırlıq hissi ilə çox sıx bağlıdır. Böyük rus pedaqoqu K.D. Uşinski hesab edirdi ki, təhsil prosesinin düzgün təşkili ilə uşaqlara xarici dillərin öyrədilməsi məktəbəqədər yaşdan başlamalıdır. Onun fikrincə, düzgün yol, konkret vizual təsvirlərə, görmə qabiliyyətinə əsaslanaraq uşaqların təfəkkürünün təkmilləşdirilməsi yolu ilə uşağın nitqinin inkişaf etdirilməsi yoludur.[5, s 15].

Təhsilin aşağı pilləsində öyrədici oyunlardan istifadə şagirdlərdə ingilis dilini öyrənməyə marağını stimullaşdırır, ingilis dilində ünsiyyət bacarıqlarının inkişafına imkanlar yaradır, onların intellektual və idraki inkişafına töhfə verir, eləcə də onların ümumi üfüqlərini genişləndirir.

Qeyd etmək lazımdır ki, oyun metodunun bütün cəlbediciliyi və effektivliyi üçün mütənasiblik hissini göstərmək lazımdır, əks halda oyunlar şagirdləri yoracaq və emosional təsirin təzəliyini itirəcəkdir. Oyunlardan istifadənin uğuru müəllimin sinifdə yaratdığı zəruri şifahi ünsiyyət mühitindən asılıdır. Şagirdlərin bu cür ünsiyyətə öyrəşməsi, özündən getməsi və müəllimlə birlikdə bu prosesin iştirakçısına çevrilməsi vacibdir. Ümumi oyun ab-havasından irəli gələn müəllimlə şagirdlər arasında inam və ünsiyyət asanlığı şagirdləri ciddi söhbətlərə, istənilən real vəziyyətlərin müzakirəsinə sövq edir, çünki ingilis dili dərsi təkcə oyun deyil. Tədrisdə oyun metodundan istifadə şagirdlərin dili öyrənməkdə idrak fəaliyyətinin inkişafına kömək edir. Oyun əhəmiyyətli bir mənəvi prinsip daşıyır. Oyundan istifadə etmək şagirdlərin nitq bacarıqlarının inkişafına kömək etdirir.

Oyunlardan tədris prosesində istifadə olunması şagirdlərin qərar qəbul etmək bacarığını formalaşdırır və eyni zamanda şagirdlərin zehni fəaliyyətini gücləndirir. Oyun metodundan ingilis dilinin tədrisində istifadə olunması zəngin öyrənmə imkanlarının olması ilə baglıdır və eyni zamanda dil öyrənən şagirdlər üçün maraqlı fəaliyyət növüdür. İngilis dilini tədris edən müəllimlərin bu metoddan istifadə etməklərinin səbəbi məhz oyunların zəngin öyrətmə imkanlarının olmasıdır. Lakin oyunun dəyəri tükənməz və əyləncə və istirahət imkanları ilə qiymətləndirilə bilməz. Onun fenomeni ondan ibarətdir ki, əyləncə, istirahət olmaqla, öyrənməyə, yaradıcılığa, insan münasibətlərinin və işdəki təzahürlərin bir modelinə çevrilə bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1.Veysova Z. Fəal təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007. 156

2.Baklashkina M. V. Teaching a foreign communication at foreign language lessons at school and University. [Foreign languages at school]. 2009. No. 1. Pp. 913. (In Russian)

3. Jeremy Harmer The Practice of English Language Teaching Fourth edition p .Ушинский К.Д. Проблемы педагогики. М., 2002.

4.İsmayılova D. Everyday Dialogues. Bakı: Mütərcim, 2001.

5.Ушинский К.Д. Проблемы педагогики. М., 2002.

6.Пучкова Ю. Я. Игры на уроках английского языка - М.: АСТ, 2003.

7.Təhsilin Modernləşdirilməsinin Elmi-Nəzəri Problemləri. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Bakı: Mürtəcim, 2015, 450 s.

8.Quliyev B. Mühərrik və əyləncəli oyunlar. Bakı–«ADPU»nəşriyyatı-2011

9.Müasir Təhsilə İnnovativ Yanaşmalar. Bakı: ARTPİ, 2016, 250 s

10. Əlizadə Ə.Ə.Yeni pedaqoji texnologiyalar: Bəzi psixoloji və pedaqoji məsələlər. // Kurikulum, 2008

11.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // “Təhsil” jurnalı, 2013, №10

**Djafarova NAİLA**

**The importance of Games in Teaching English language**

In the modern era games are important and effective tools in teaching English. They are widely used in teaching process to increase students motivation. Replacing traditional teaching methods with more interactive and engaging games makes the learning process more dynamic and effective. The use of games in language acquisition helps develop students’ communicative skills, builds self-confidence and improves their language abilities. The use of games enhances the effectiveness and productivity of the communicative teaching process.

**Key words: method, game, teaching, technology, student, effective, active, interest, quality, English language, communicative skills, teaching process**

**Важность игр в обучении английскому языку**

Современную эпоху игры являются важным и еффективным средством преподавании английского языка. Они широко используються в учебном процессе для повышения мотивации учащихся. Замена традиционных методов обучения на более интерактивные и мотивирующие игры делает процесс обучения более живым и эффективным. Использование игр в освоении языка способствует развитию коммуникативных навыков учащихся и способствует формированю уверенности в себе и совершенствованию языковых умений. Правильное использование игр делает коммукативно учебный процесс более продиктивным.

**Ключевые слова: метод, игра, обучение, технология, учащийся, эффективный, активный, интерес, качество, английский язык, коммуникативные навыки, процесс обучения**

**Rəyçi: dosent Sədiyeva Könül**